Gənclər və İdman Nazirliyi və Azərbaycan Atletika Federasiyası tərəfindən 2007-2008-ci il təvəllüdlü oğlan və qızlar arasında atletika idman növü üzrə Azərbaycan birinciliyi keçirilib.

Atletikanın müxtəlif məsafələrə qaçış, uzunluğa tullanma və yadro itələmə növləri üzrə oğlan və qızlar arasında təşkil olunan birinciliyə ölkənin müxtəlif rayon və şəhərlərindən olan klublar, cəmiyyətlər və idman təşkilatlarından 12 komanda olmaqla 137 idmançı qatılıb.

Yarışda Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən uşaq-gənclər idman-şahmat məktəblərinin idmançıları 9 qızıl, 4 gümüş və 6 bürünc medal qazanıblar.